# BİR ANANIN SAVAŞ YOLU

Müharibə həmişə insanların həyatına yeni vərdişlər, yeni davranışlar, hətta bəzən yeni dəyərlər gətirir. İnsanlar istəsələr də, istəməsələr də müharibənin yazılmış və yazılmamış qanunlarına tabe olur, öz həyatlarını bu qanunlara uzlaşdırırlar. Hətta insan münasibətləri də müharibənin sərt tələblərinə tabe olur, bəzən etirazla qarşılanan hər hansı bir tələb və istək üçün müharibənin əsas olduğunu yada salır çətin olsa belə razılaşırlar.

Biz, əsasən, müharibə iştirakçısı dedikdə biz ancaq səfərbərliyə alınıb, döyüşə göndərilmiş, döyüşdə iştirak etmiş şəxsləri nəzərdə tuturuq. Ancaq müəyyən zaman keçdikdən sonra və həmin dövrü bütövlükdə təhlil edəndə görürük ki, heç də arxa cəbhədə olan şəxslər müharibənin odları, alovları içərisində olanlardan az zəhmət, bəlkə də, az zillət çəkməyiblər. Axı arxa cəbhənin insanları müharibənin tələblərinə cavab verəcək gücdə çalışmasaydılar, onda heç döyüşçü də düşməni yenə bilməzdi. Bu öz yerində.

Bir də var həmin dövrün uşaqlarının həyatı. Axı uşaqlar heç bir günahları olmadan müharibənin gətirdiyi əzab-əziyyətlərə, gərginliklərə, zillətlərə düçar olurlar. Məhz müharibə bəlası olaraq. Aclıqdan ölən, səfalətdən müxtəlif xəstəliklərə düçar olub körpəykən, tifilkən həlak olan uşaqlar azdırmı? Demək, əslində bir ölkə müharibə taleyi yaşayırsa, o ölkənin xalqı da bütövlükdə müharibə həyatının acılıqları ilə birgə nəfəs alır. Müharibənin bəlalarını varlıqlarında daşımalı olurlar.

Belə bir tale Muğdatın da ailəsindən yan keçməmişdi. O da gənc xatunu - bizim qəhrəmanımız Nəsibə ananı dörd körpə balası ilə taleyin ümidinə buraxaraq cəbhəyə getmişdi. Demək, onların taleyi müharibənin dəhşətləri ilə barışmalı olmuşdu. İş burasındadır ki, arxa cəbhədə müharibə dövrünün tələblərinə cavab verən adamlar iş başında saxlanılırdı. Onların davranışlarından, insanlıq münasibətlərindən, başqa sözlə, insanları qorumaq güclərindən asılı olurdu çox vaxt arxa cəbhənin insanlarının taleyi. İş elə gətirmişdi ki, ağır repressiya dövrünün qəddarları demək olar ki, tarix səhnəsindən silinib getmişdi. İndi az-çox insanların qədrini bilən rəhbər işçilər iş başına gətirilmişdi. Beləl追rindən biri də Gərmətük kəndinin kolxoz sədri idi. O, qorxa-qorxa yanına gəlmiş Nəsibə ananın taleyinə biganə qalmır. Övladlarını aclıq bəlasından xilas etmək istəyən ananın kolxoz üzvü olmasına kömək edir. Ona iş sahəsi ayırır.

Gərmətük kəndinin insanları lap qədim zamanlardan çəltik becərmə işləri ilə məşğul olurdular. Bicar onların dədə baba sənəti idi. Səhərdən axşamacan rütubətin içərisində çalışmaq, övladları üçün bir tikə çörək qazanmaq artıq Nəsibə ananın həyat qayəsi idi. O yaxşı başa düşürdü ki, bu bir tale sınağıdır, gərək bu sınaqdan çıxa bilsin. O həmişə ümid edirdi ki, bu gün-sabah müharibə qurtarar, həyat dəyişər. İnsanlar yenidən əmin-arxayın yaşayarlar. Bu ümidlə səhər işə gedər, axşam qayıdardı.

Demək olar ki, kolxoz işindən sonra o gecənin bir aləminə qədər ev təsərüfatı ilə məşğul olardı. Həyətyanı sahədə bostan, tərəvəz məhsulları yetişdirmək üçün çalışardı. Baxmayaraq ki, müharibə idi, hər yanda qıtlıq hökm sürürdü, artıq ailənin qapısını bolluq döyməkdə idi. Təzəcə aldıqları inəyin südü, ağartısı, həyətdə yetişən tərəvəz kifayət qədər uşaşı dolandıra bilirdi. Yazıçı Fatma Həsənqızının sənədli romanında "Bolluq" adlanan hekayət bir ana qəhrəmanlığının, fədakarlığının, bir sözlə, sonsuz zəhmətinin bəhrəsi kimi görünən mənzərədən xəbər verir. Yazıçı Muğdatın ailəsinin taleyində halal zəhmətin dəyişdiyi mənzərəni real cizgilərlə göstərir: "May ayının əvvəlləri idi. Günəş yeri isidib cana gətirmişdi.Gərmətük kəndini tanımaq olmurdu. Meyvə ağacları çiçəkləmiş, kənd əlvan dona bürünmüşdü. Ətraf qışın cansıxıcı yeknəsəqliyindən qurtulduğu üçün sanki müharibənin ağrı-acısı azca da olsa yüngülləşmişdi.

Çəltik əkini başlamışdı. Böyüklər sübh tezdən işə gedir, axşam qaranlığında evə qayıdırdılar. Ev-eşik qayğıları nisbətən böyük uşaqların öhdəsinə düşmüşdü. Hamı kimi Xudadat da dincəlmək üçün bir dəqiqə belə vaxt tapmırdı. O, yuxudan anası ilə bərabər durur, inək sağmaqda, səhər yeməyi hazırlamaqda ona kömək edirdi. Nəsibə işə gedəndən sonra Xudadat inəyin yerini təmizləyir, yemini-suyunu verir, toyuqları hindən buraxıb həyətə dən səpirdi. Sonra isə oturub nehrə çalxalayır, boşaldıb yağını bir yerə toplayıb götürür, ayranı isə bəzən torbaya tökərək süzmə hazırlayır, bəzən isə həyətdən göy-göyərti dərib dovğa bişirirdi. Bundan sonra süfrə açıb bacı-qardaşlarına yemək verir, uşaqların fikrini saxlayaraq bir qədər oynayır və durub çəltik sahəsinə aparmaq üçün anasına nahar hazırlamağa başlayırdı. Xudadat bicar anasına yemək aparıb qayıdandan sonra uşaqlara da yemək verər və bir qədər dincəlib beli götürər və həyətdəki bostan-tərəvəz sahəsinə çıxardı". Burada bir ifadə diqqətimi daha çox çəkdi. Çəltik becərilməsinə, çəltik becərilməsində çalışanlara, bir sözlə, çəltik becərilməsinə aid olar "bicar" sözünü Fatma Həsənqızı öz yazısında işlədib. Ancaq kitabda həmin ifadə biçarə şəklində işlənib. Görünür, korrektor bicar sözünün mənasını bilmədiyindən həmin sözün axırına "ə" hərfi də əlavə edib. Beləliklə, "bicar Nəsibə" əvəzinə alınıb "biçarə Nəsibə". Biçarə sözü Nəsibənin taleyi ilə uyğun gəldiyindən bunu daha düzgün hesab edib. Ancaq hər halda biz bicar işinin nə qədər ağır və çətin olduğunu Nəsibə ananın - ərini müharibəyə göndərmiş bir qadının çarəsizliyi fonunda daha yaxşı qavrayırıq.

Nəsibə ananın fədakarlığı təkcə onun ağır zəhmətə qatlaşmağı ilə bağlı deyil. O, uşaqların zəhmətə alışması, düzgün tərbiyəsi, xüsusilə salamatlığı üçün də öz evində, ailəsində dəqiq işləyən ailə məktəbi mexanizmini yaradır. Elə bu məktəbin sayəsində böyük oğlu Xudadat artıq onun ən yaxın silahdaşına çevrilir.

Yazıçı Fatma Həsənqızı təbiəti, fəsillərin dəyişməsini ailənin həyat tərzi ilə dəqiq uzlaşdırır. Təbiətdə havalar yaxşı keçirsə, evdə də uşaqların əhvalı yaxşı olur. Bu da onu göstərir ki, yazıçıda öz qəhrəmanlarının taleyi ilə yaşamaq hissi çox güclü olub: "Hava bu gün hər günkündən qızmar idi. Ara-sıra dəniz tərəfdən əsib gələn meh adamın üz-gözünü bir qədər sərinlədirdi. Çöldə iş başında çalışan əmək adamları təbiətin bu sığalından xoşhallanır, işlərini tez başa vurmağa çalışırdılar.

Xudadat da əlində bel həyətyanı sahədə alaq eləyir, torpağı yumşaldıb tağların altına çəkirdi. Ağadat, Suğra və Şəddat yabanı otları bir yerə qalaqlayır, sonra qucaqlarına alıb həyətin yan tərəfindən dirəyə bağlanmış inəyin və buzovun qabağına tökürdülər". Bəli, müharibə belədir. Sanki uşağı da vaxtından əvvəl böyüdür. Uşaq taleyi müharibə qanunlarının hökmü ilə barışmalı olur. Ailənin ən kiçik üzvü Şəddatın uşaq yaddaşında kədərli hekayətlər kimi qalmış həmin günlərin xatirələri indiki zamanımızla çox səsləşir. Körpələrini cəmiyyətin ümidinə buraxıb Qarabağ savaşına getmiş qəhrəmanlarımızın övladlarının taleyi elə Şəddatın taleyidir. İndi necə demək olar ki, bu uşaqlar müharibə iştirakçısı deyil. Bu mənada Şəddat Cəfərov dövrümüzün ictimai xadimi, görkəmli naşiri olaraq müharibə illərinin xatirələri ilə dövrün ən dəhşətli mənzərələrini bizim gözlərimizin önünə gətirə bilir.

Balaca uşaq həyətdə oynayır. Körpə buzov onun gözlərinin önündədir. Bəlkə də onun üçün anasının yanında olan, özünü qayğısız bilən uşaq üçün körpə buzovun timsal gətirilməsi çox maraqlı bir həyat detalıdır. İstər insan övladı olsun, istərsə də bir heyvanın balası olsun əgər anası yanındadırsa, demək o dünyanın ən qayğısız varlığıdır: "Şəddat bəzən malların otu necə xırtıldada-xırtıldada yeməklərinə tamaşa edirdi. İndi də elə oldu. Heyvanların yeməyinə xeyli tamaşa etdi. Yaxınlaşıb buzovun belini bir neçə dəfə sığalladı. Bir də gördü ki, qardaşı ilə gətirdikləri ot qurtarıb. O tez geri qayıtdı.

-Boyli (böyük qardaşı Xudadatı belə çağırırdı), inək otu yeyib qurtardı, - deyə göz yaşlarını axıtmağa başladı.

-Daha niyə ağlayırsan?

-Axı, onlar doymadılar. İnəyimiz ac qalsa, süd verməz. Xudadat böyüklərə xas olan tərzdə gülümsədi və dedi:

-Narahat olma, qardaş, budur bax, gör nə qədər alaq belləyib yerə sərmişəm. Hamısı da inəyin südünü artıran faydalı otlardı.

Yığ apar inəyin də yesin, balası da.

Nəsibənin başı işə qarışdığından həyətdəki əkinin vəziyyətindən xəbər tuta bilmirdi. Evə o qədər yorğun gəlirdi ki, heç danışmağa belə taqəti olmurdu. Bir onu edirdi ki, inəyi sağıb, sərnici süd qarışıq kənara qoyurdu.

Belə vaxtlarda Xudadat anasının köməyinə çatırdı: -Ana, sən get dincəl. Qalan işləri mən görərəm.

-Ana, süd sərnicini mən aparıb yerinə qoyaram, - deyə Ağadat dillənirdi.

Balaca Şəddat: -Mən də buzovun qabağına ot tökərəm.

-Sağ olun, mənim balalarım. Allah sizi mənim ocağımdan əskik eləməsin". Uşaqlar arasında olan dialoqları yalnız oxumaqla təəssüratımızı başa vura bilmərik. Sanki özümüz də bir uşağa dönürük. Səksən ilin o tayında qalmış həmin ağır günlərə qayıdırıq. Uşaqlar arasındakı söhbət, onlar arasındakı söhbətlər zamanı qarşıya çıxan suallar əslində dərin, həyati mətləblər üçün açara çevrilir. Bəlkə də biz uşaqların düşüncəsi ilə, onların gözləri ilə bizdən uzaqlaşmış tarixin mənzərəsini daha yaxşı dərk edirik, qavrayırıq.

Hər halda uşaqların taleyi elə ananın taleyidir. Nəsibə ana işdə olanda da evin qayğısı ilə yaşayır. Bəlkə də uşaqların xırda bir səhvi ilə necə dəhşətli faciə baş verə bilər fikri onu heç vaxt tərk etmir. Ona görə də tarladakı işini bitirən kimi evə tələsir.

Yazıçı Fatma Həsənqızının "Acılı-şirinli günlər" romanında ən xırda detalına qədər öz əksini tapmış Nəsibə ana obrazı dövrün ən möhtəşəm ana obrazları ilə birgə fədakarlığına görə uca tutulur.

Nəsibə ananın evdə qurduğu ailə məktəbi öz "fəaliyyətini" uğurla davam etdirir. Uşaqlar bu məktəbdə məsuliyyət dərsi keçir, zəhmətə alışır. Bir-birinin qayğısını çəkmək elmini öyrənir. Nəsibə ana bir xüsusiyyəti ilə də diqqəti cəlb edir. O hər vaxt balalarına cəbhədə olan Muğdat haqqında danışır. Onları atalarına məhəbbət ruhunda böyüdür. Bütün bunların hamısı bir ananın zəngin mənəvi mühitindən xəbər verir: "Nəsibə işdən evə gələndən sonra, az yorğun olanda, balalarını başına toplayar, onlara nəsihətamiz sözlər deyər, nağıl danışar, tapmaca söyləyərdi. Baxmayaraq Xudadat savadlı idi, anasının bütün söylədiklərini əzbərdən bilirdi, ancaq Suğra, Ağadat və Şəddat kimi o da anasına diqqətlə qulaq asır və tapmacaların cavabını birinci deyirdi. Uşaqlar Nəsibənin söylədiyi bayatıları da yadda saxlamışdılar. Bir dəfə Şəddat anasından öyrəndiyi bir bayatını söylədi:

Əzizim, günəş doğsun,
Arxlara bol su dolsun.
Çalışdığım odur ki,
Bol olsun, bolluq olsun.

Şəddat bayatını bitirən kimi anasının yanına qaçdı, döşəmədə sərilmiş həsirin üstündə bardaş qurub oturdu.

-Ana, arxlarda su var da, daha niyə dolsun?

Nəsibə gülümsədi. Oğlunun üzündən öpdü və dedi:

-Oğul, yadında saxla, yer üzündə həm günəşin istisi, həm də arxların su ilə dolması bolluq yaradır.

-Ana, bəs bolluq nədir?

-Mənim ağıllı balam, - Nəsibə ana hər şeylə maraqlanan azyaşlı balası başa düşsün deyə lap sadə sözlərlə Şəddatın sualına cavab verdi, - bolluq yemək şeyləri deməkdi. Nə qədər yemək çox olsa, adamlar da o qədər yaxşı yaşayar". Düşünmək olar ki, klassik pedaqoqların dediyi kimi "ağ lövhə" olaraq dünyaya gəlmiş hər bir uşağın alın yazısı onların tərbiyəsi, həyat dərslərini öyrənmələri ilə yazılır.

Həyat bütün çətinlikləri dəf etmək elmidir. Biz bu elmin kiçik bir epizodunu ana və bala arasındakı dialoqdan da aydınca görə bilirik; Nəsibə ananın "bolluq" sözünə verdiyi şərhi, "bolluq" sözünü özünəməxsus mənalandırması çox maraqlıdır. Beləcə həyat dərsləri davam edir. Müharibə taleyi yaşayan uşaqlar müharibə iştirakçısı olaraq böyüyürlər.

Müharibə iştirakçısı olaraq Şəddat babanın öz nəvələrinə, nəticələrinə həmin dövrün dəhşətləri haqqında danışdıqları əslində tariximizin bir parçasıdır. Həm də etibarlı parçasıdır. Çünki biz bu tarixi müharibənin bütün dəhşətlərini həyatında yaşamış olan insanın dilindən eşidirik.

Nə qədər ki, insanlar arasında insana qəddarlıq münasibəti ilə fərqlənənlər var, demək müharibə təhlükəsi də var. Ona görə də müharibəni görmüş insanları mümkün qədər qorumalı, onlara sonsuz hörmət və ehtiramımızı göstərməliyik.

Müharibənin qarşısını almaq, insanları qorumaq... İnsanlığın ən uca idealı elə budur.

*Əli Rza XƏLƏFLİ*
*18.05.2021*